**26.12.2023: xəbər**

## Literary and Artistic Celebration Commemorating the 110th Anniversary of People’s Poet Nigar Rafibeyli

On December 15, 2023, Khazar University's "Dunya" School hosted a literary and artistic event dedicated to the 110th anniversary of People's Poet Nigar Rafibeyli at the "Incichichayi" Conference-Concert Hall.

The opening performance featured young singer Fuad Dadashov, presenting the song "Ala gözlüm" composed with Nigar Rafibeyli's lyrics. Following this, Prof. Acad. Hamlet, the founder of Khazar University, chairman of the Board of Directors and Trustees, greeted the audience, including students, teachers, Nigar Rafibeyli's family, writers, poets, scientists, and members of the press. He reflected on Nigar Rafibeyli's contributions, mentioning the fulfillment of his late wife Nailekhanim Isayeva's dream of publishing portrait books about influential women in Azerbaijani history and culture. The tenth book is dedicated to Nigar Rafibeyli.

The book, elegantly prepared by the Marketing Department of "Dunya” School, was presented to the guests in special bags.

People's Poet Anar delivered a speech at the event. In his speech, he also emphasized that Hamlet Isakhanli successfully continued the remarkable work initiated by prominent educators such as Firidun bey Kocherli and Rashid bey Efendiyev. Nigar Rafibeyli's daughter Fidan and granddaughter Gunel shared poignant memories. Honored Scientist Prof. Gazanfar Pashayev provided insights into Nigar Rafibeyli's life and work.

Following the event, guests explored exhibits related to the life and endeavors of the distinguished educator at the Nailekhanim Museum. Honored Scientist Prof. Gazanfar Pashayev later published a comprehensive article about the celebration and the work of People's Poet Nigar Rafibeyli in the December 22, 2023, issue of the "525th newspaper", available on the newspaper's website.

## Xalq şairi Nigar Rəfibəylinin 110 illiyinə həsr olunan ədəbi-bədii tədbir

2023-cü il dekabrın 15-də Xəzər Universiteti "Dünya məktəbi"nin “İnciçiçəyi” Konfrans-Konsert Salonunda Xalq şairi Nigar Rəfibəylinin 110 illiyinə həsr olunan ədəbi-bədii tədbir keçirildi.

Tədbiri gənc müğənni Fuad Dadaşov Nigar Rəfibəylinin sözlərinə bəstələnmiş "Ala gözlüm" mahnısı ilə açdı. Sonra Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı salonda toplanan tələbə və müəllimləri, Nigar Rəfibəylinin ailə üzvlərini, yazıçı və şairləri, elm adamlarını, mətbuat nümayəndələrini salamladı, Nigar Rəfibəylinin yaradıcılığından bəhs etdi. Hamlet İsaxanlı xüsusi vurğuladı ki, həyat yoldaşı, mərhum Nailəxanım İsayevanın ən böyük arzusu tarixdə iz salan, Azərbaycan mədəniyyətinə töhfə verən qadınlar haqqında portret kitablar buraxmaq idi. Nailəxanımın arzusu reallaşdırılaraq, artıq 10 kitab işıq üzü görüb. Onuncu kitab Nigar Rəfibəyliyə həsr edilib.

"Dünya məktəbi"nin Marketinq Departamenti tərəfindən nəfis şəkildə, zövqlə hazırlanmış kitab xüsusi çantalarda qonaqlara hədiyyə olundu.

Tədbirdə Xalq şairi Anar çıxış etdi. Çıxışında, həmçinin, Hamlet İsaxanlının görkəmli maarifçilər Firidun bəy Köçərli, Rəşid bəy Əfəndiyev kimi şəxsiyyətlərin gördüyü misilsiz işləri uğurla davam etdirdiyini xüsusi vurğuladı. Nigar Rəfibəylinin qızı Fidan və nəvəsi Günel kövrək xatirələrini dilə gətirdilər.

Tədbirdə Əməkdar elm xadimi, Prof. Qəzənfər Paşayev çıxış edərək, Nigar Rəfibəylinin həyat və yaradıcılığından geniş söz açdı.

Tədbirdən sonra qonaqlar Nailəxanım muzeyində görkəmli pedaqoqun həyat və fəaliyyətinə aid eksponatlarla tanış oldular.

Əməkdar elm xadimi, Prof. Qəzənfər Paşayev “525-ci qəzet”in 22 dekabr 2023-cü il tarixli sayında tədbir haqqında və Xalq şairi Nigar Rəfibəylinin yaradıcılığına aid geniş məqalə çap etdirmiş, məqalə qəzetin saytında yerləşdirilmişdir:

https://525.az/news/246821-bulaq-suyu-kimi-saf-ayna-kimi-lekesiz-qezenfer-pasayev-yazir


Xalq şairi
Nigar
Rəfibəyli
110

























SALONU